BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2015*

**UOT 94(479.24)**

# QUBADA VƏ QUBA QƏZASINDA 1918-Cİ İLİN YAZINDA TÖRƏDİLƏN SOYQIRIMLARININ SOVET TARİXŞÜNASLIĞINDA TƏHRİF EDİLMƏSİNİN FTK SƏNƏDLƏRİ ƏSASINDA TƏDQİQİ

**A.C.XƏLİLZADƏ**
***Bakı Dövlət Universiteti***
***azerbaijan@rambler.ru***

*Bu məqalə 1918-ci ilin yazında Qubada və Quba bölgəsində ermənilər tərəfindən törədilən soyqırımının sovet müəlliflərinin əsərlərində yanlış təqdim olunmasına həsr olunmuşdur. Minlərlə günahsız insanların qətlə yetirilməsi ilə yadda qalan bu soyqırımına sovet tarixçiləri öz əsərlərində demək olar ki, toxunmamış və ya çox səthi bir şəkildə buna münasibət bildirmişlər. Məqalədə həm də bu soyqırımları dərindən araşdıran Fövqəladə Təhqiqat Komissiyasının əsl həqiqətləri özündə əks etdirən sənədləri də təqdim olunmuşdur.*

**Açar sözlər:** soyqırım, terrorizm, erməni, müsəlman, komissiya

1918-ci ilin aprel-may aylarında bolşevik daşnak cütlüyünün Qubada və Azərbaycanın digər bölgələrində törətdiyi kütləvi qətliamlar və qarətlər istər 20-30-cu illər Sovet tarixşünaslığında, istər, 50-60-cı illər sovet tarixşünaslığında, istərsə də 70-80-ci illər tarixşünaslığında Azərbaycan xalqı tərəfindən dəstəklənməyən, heç bir sosial dayağa malik olmayan, milli istiqlal hərəkatımıza qənim kəsilən, torpaqlarımız hesabına «Böyük Ermənistan» yaratmaq amalı və məfkurəsi ilə ən iyrənc mübarizə üsullarını həyata keçirən, dinc, heç bir günahı olmayan soydaşlarımıza qarşı soyqırım siyasətini geniş miqyasda həyata keçirən cinayətkar Bakı Kommunasının fəaliyyəti «Kütlələrin proletar beynəlmiləlçiliyi ruhunda burjua-millətçi cərəyanlara qarşı amansız mübarizəsi» kimi qələmə verilirdi (1, 58-59; 2, 66).

O dövrün tədqiqat əsərlərinin, demək olar ki, böyük əksəriyyətində Bakı Kommunasının şəxsi təşəbbüsü, bilavasitə Stepan Şaumyanın əli ilə törədilən soyqırımlarının, o cümlədən Qubada və Quba qəzasının dinc sakinlərinin canlarına və qanlarına olan qəsdin əsl mahiyyəti təhrif edilir, hadisələr Sovet ideologiyasına uyğunlaşdırılır, ciddi təhriflərə yol verilirdi. Azərbaycan xalqını

ardınca aparan milli partiyalar «əksinqilabi partiyalar» kimi qələmə verilirdi: «Həmin dövrdə ən mühüm vəzifə Bakı Sovetində əksəriyyəti bolşeviklərin tərəfinə çəkməkdən, geniş kütlələrin rəğbətini qazanmaqdan və onları əksinqilabçı partiyaların təsirindən qorumaqdan ibarət idi» (2, 58-59; 2, 66).

Sovet tarixşünaslığında Bakı XKS-nin antiazərbaycan mahiyyətli siyasi fəaliyyətini və bu cinayətkar siyasi xəttin real nəticələrindən biri kimi Qubada və Azərbaycanın digər bölgələrində törədilən soyqırımlarını ört-basdır etmək üçün hər cür saxtakarlığa əl atılmış, hadisələrin real inkişaf dinamikası və mahiyyəti sovet ideologiyasının tələblərinə, siyasi maraqlarına uyğun şəkildə təsvir və təqdim edilmişdir.

1918-ci ilin mart-may aylarında Bakıda və onun məntiqi davamı kimi Şamaxıda, Qubada, Lənkəranda və digər bölgələrdə törədilən soyqırımlarının bilavasitə təşkilatçısı və baş icraçısı olan S.Şaumyan təbii ki, bu qırğınları törətməklə, ilk növbədə 1917-ci ilin fevral inqilabından sonra Azərbaycanda baş qaldıran milli-istiqlal hərəkatını boğmaq, bu hərəkatın önündə duraraq geniş sosial bazaya malik olan Müsavat partiyasını siyasi rəqib kimi aradan çıxarmaq məqsədini güdürdü. Qubada və Quba qəzasında törədilən qətliam və talanlarla bağlı AXC-nin təşkil etdiyi FTK sənədləri bu həqiqəti çoxsaylı təkzibedilməz faktlarla sübut edir (3, 1.2.3.4.5. və s.).

Uzun illər sovet tarixşünaslığı Müsavat partiyasını Daşnaksütyun partiyası ilə eyni sırada, vahid antisovet cəbhəsində yerləşdirməklə, əslində ictimai-siyasi məfkurəsinə, fəaliyyətinə və məqsədlərinə görə bir-birilə dərin antaqonist mövqedə dayanan bu iki partiyanı sonda baş verən qanlı olaylara, bolşevik – daşnak tandemi tərəfindən həyata keçirilən soyqırımları və talanlara görə suçlamaq məqsədini güdürdülər.

Məsələn, Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri kitabında bəhs edilən hadisələrlə bağlı oxuyuruq: «Eyni zamanda müsavatçılar daşnaklarla danışıq aparırdılar. Fevral və mart ayları ərzində Müsavat partiyası və Müsəlman milli şuraları nümayəndələri» «Daşnaksütyun» partiyası və Erməni milli şurası nümayəndələri ilə bir neçə dəfə görüşdülər» (4, 278). Amma nə üçün, hansı məqsədlə görüşdülər, bu görüşün nəticəsi nə oldu? Məhz bu məqama toxunarkən adı çəkilən kitab labüd fiaskoya məruz qalır.

1918-1920-ci illərdə mövcud olan Ermənistan Respublikasının naziri olmuş O.Kaçaznuni bəhs edilən dövrdə daşnakların məhz bolşeviklərlə ittifaqda fəaliyyət göstərməyə maraqlı və meylli olduqlarını aşkar surətdə göstərir: «Bolşeviklərə qarşı yalnız iki partiya real güc nümayiş etdirə bilərdi. Tatarların «Müsavat» və ermənilərin Daşnaksütyun partiyası. Lakin bolşeviklərə qarşı mübarizədə uğur qazanmaq üçün bu partiyalara birləşmək zəruri idi – bu isə mümkünsüz idi, çünki bu iki partiyanın bir-birinə qarşılıqlı inamı yox idi» (5, 21).

O.Kaçaznuni bu inamsızlığı belə izah edir: «Daşnaksütyun başa düşürdü ki, bolşevikləri neytrallaşdırdıqdan sonra «Müsavat» onu da siyasi səhnədən uzaqlaşdıracaqdır» (6, 21).

O.Kaçaznuni hadisələrin belə gedişini, ilk növbədə siyasi oyunun, hakimiyyət uğrunda mübarizənin labüd qanunauyğunluğu kimi qələmə verir, yəni əslində hər bir siyasi partiyanın belə edəcəyinin labüd olduğunu söyləyir: «Heç bir şübhə yoxdur ki, bolşeviklər də silahlı daşnak dəstələrinin köməyi ilə «Müsavat»ı aradan götürdükdən sonra belə edərdilər» (7, 21).

Beləliklə də, Kaçaznuni 1918-ci ilin mart-may aylarında Azərbaycan qəzalarında, o cümlədən Quba şəhərində və Quba qəzasında türk-müsəlman əhalisinə qarşı törədilən qırğınların əsl səbəbini, əsl mahiyyətini etiraf edir. Regionda yerli türk-müsəlman əhalisi arasında obyektiv olaraq çox böyük və danılmaz söz və nüfuz sahibi olan Müsavatın getdikcə artmaqda olan siyasi nüfuzu təbii ki, erməniləri və milli tərkibi ermənilərdən ibarət olan Bakı Sovetini qane etmirdi. Məhz bu amil siyasi əqidəsindən asılı olmayaraq bolşevizm ideyaları ilə ustalıqla pərdələnən «bolşevik» ermənilərlə daşnakları vahid bir cəbhədə birləşdirirdi.

Əli xalqımızın qanına batan qatil Şaumyanın vətənimizdə məqsədyönlü surətdə təşkil etdiyi silsilə soyqırımlarına inqilabi mübarizə adı ilə bəraət qazandırması, milli zəmində ədavəti qızışdırması təbii ki, xalqımızın fiziki məhvinə hesablanmış niyyətlərdən xəbər verirdi: Cinayətkar erməni «bolşeviki»nin məhz bu siyasəti ayrı-ayrı siyasi partiyalarda fəaliyyət göstərən erməniləri vahid bir məcrada birləşdirirdi. Yuxarıda Kaçaznunidən gətirilən iqtibaslar daşnakların bolşevikləri hansı formada və nə üçün dəstəklədiklərini aydın göstərdi. Lakin St.Şaumyanı təkcə daşnaklar deyil, digər siyasi cərəyanlara mənsub ermənilər də dəstəkləyirdi. Məsələn, 1917-ci il mayın 10-da Bakı fəhlə deputatları Soveti hərbi deputatları Soveti ilə birləşdikdən sonra eserlərin mövqeyi Sovetdə daha da qüvvətlənmişdi. Çünki hərbi deputatlar Sovetində kəmiyyət baxımından eserlərin çəkisi artmışdı. Məhz bu zaman Bakı Sovetində erməni eserlərlə, daşnaklar öz qüvvələrini vahid bir məcrada birləşdirərək eser Saakyanı koalision Sovetə sədr seçməyə nail olmuşlar (8, 1. 111; 2. 34-44; 3. 57).

1918-ci ilin yazında Quba qəzasında və Azərbaycanın digər bölgələrində törədilən soyqırımları əslində Rusiyadakı mərkəzi bolşevik hökuməti ilə Cənubi Qafqazda hakimiyyəti yalnız Bakı ilə məhdudlaşan yerli bolşevik təşkilatının bu hakimiyyətin coğrafiyasını Azərbaycanda daha da genişləndirmək üçün birgə həyata keçirdikləri plan idi. Elə bu səbəbdən də istər Qubada, istərsə də Azərbaycanın digər bölgələrində bu soyqırımları xüsusi qəddarlıqla həyata keçirilirdi.

Quba qırğınları ilə bağlı arxiv sənədlərində küçələrdə qalaq-qalaq qalaqlanan meyitlərin basdırılmasına icazə verilməməsi, meyitlərin əllərinin, başlarının kəsilərək eybəcər hala salınması baş verən olayların məqsədyönlü şəkildə, xüsusi qəddarlıqla həyata keçirildiyini bir daha sübut edir: Meyitlər küçələrdə, evlərdə və həyətlərdə dörd gün sərələnərək qaldılar. Meyitlərin çürüməsi səbəbindən şəhərdə dəhşətli üfunət hökm sürürdü. Dördüncü günü sanki sakitlik və əmniyyət bərpa oldu, hətta meyitləri basdırmağa başladılar» (9).

Diqqəti cəlbedən məqamlardan biri də hətta belə bir şəraitdə də erməni-

lərin qubalıları alçaltmaqdan zövq almaları idi. Belə ki, həmin dəhşətli hadisələrin şahidləri söyləyirlər: «Dördüncü gün carçılar müsəlman kişilərin meyitləri basdırmaq üçün qollarına ağ parça bağlayaraq küçələrə çıxmasına icazə verdiklərini bəyan etdilər. Çoxları çıxdısa da, evlərinə bir daha dönmədi, çünki ermənilər tərəfindən güllələndilər. Biz yenə də gizləndik. Meyitlər ermənilər şəhəri tərk edənədək küçələrdə qaldılar. Ölənlər arasında uşaqlar və qadınlar çoxluq təşkil edirdilər. Çoxlarının başları kəsilmişdi» (10).

Bu deyilənlər istər-istəməz insanın gözləri önündə 1992-ci ildə erməni faşistlərinin ruslarla birgə Xocalıda törətdiyi faciəni xatırladır. İllər, qərinələr dəyişsə də ermənilərin xalqımıza qarşı bəslədikləri kin, küdurət və düşmən xisləti dəyişmir. Azərbaycan daim yadellilərin diqqətində olub, onun yeraltı, yerüstü sərvətləri çoxlarının ağzını suladıb. İşğalçılar bu sərvətləri ələ keçirmək üçün nə qədər qan töküblər, xalqın mal-dövlətini talan ediblər.

Yurdumuzda törədilən bu talanlar daha çox Rusiyanın adı ilə bağlıdır – deyə yazan tədqiqatçılar F.Əsədov və S.Kərimova haqlı olaraq rusların Azərbaycanı əldən verməmək üçün yeritdikləri məkrli siyasətlərində ermənilərdən hər zaman bir alət kimi istifadə etdiklərini söyləyirlər (11, 88). Adı çəkilən müəlliflər yazırlar: «Rusların Azərbaycanda geniş işğalçılıq siyasəti əsasən ermənilərin siyasətində mümkün olmuşdur. Daha doğrusu, ruslar Qafqaza gəldikləri vaxt yalnız ermənilərə bel bağlamış, onların qüvvəsindən hərtərəfli istifadə etmişlər» (12, 88).

Elə 1918-ci ilin yazında Qubada və Quba qəzasında törədilən soyqırımlarında da biz bolşevik-daşnak tandeminin sayəsində bu birgə fəaliyyətin şahidi oluruq. Təəssüf ki, sovet tarixşünaslığında bütün bu məqamların üstündən sükutla keçilir. Baş vermiş soyqırımları artıq XX əsrin 20-30-cu illərində bolşevik ideologiyasının işləyib hazırladığı, forma və məzmun baxımından total şəkildə sovet siyasi rejiminin maraqlarına uyğun bir formada təqdim edilməyə başladı. Qubada, Quba qəzasında və Azərbaycanın digər bölgələrində həyata keçirilən, baş ideoloqu və memarı şəxsən St.Şaumyan olan silsilə soyqırımları əslində Cənubi Qafqazın, əsasən də Azərbaycanın türk-müsəlman əhalisinə qarşı, sırf milli zəmində yeridilən son dərəcə məkrli və qəddar bir müharibə Sovet tarixşünaslığında vətəndaş müharibəsi kimi təqdim edilirdi: «Vətəndaş müharibəsi elə indi də davam edir. Bizim Qızıl Qvardiyadan və Qızıl Ordudan olan qabaqcıl yoldaşlarımız Petrovskda, Şamaxıda vuruşur, Lənkəran, Dərbənd, Quba və Səlyanda Sovet hakimiyyəti qururlar» (13, 129).

Qeyd etmək yerinə düşərdi ki, bəhs edilən dövrdə, yəni 1918-ci ilin əvvəllərində Quba qəzası ərazi-inzibati baxımdan 5 polis sahəsinə bölünmüşdü: Dəvəçi, Qusar, Müşkür, Rustov, Fətihbəyli polis sahələrinə. Öz növbəsində bu polis sahələri hər biri 2-3 kənddən təşkil olunmuş icmalardan ibarət idi – daha doğrusu bu icmalar üzərində polis xidməti, nəzarəti funksiyasına, səlahiyyətinə malik idilər. 1917-ci ilə dair tərtib olunmuş Qafqaz təqvimində qeyd edildiyi kimi, Quba qəzasında ümumilikdə 55 icmada 540 adda kənd mövcud idi.

ADR hökuməti tərəfindən 1918-ci ilin dekabrında haqqında bəhs edilən

qanlı olayları tədqiq etmək üçün yaradılan Fövqəladə Təhqiqat Komissiyası Qubada və Quba qəzasında baş verən qətliamları və talanları tədqiq edərkən zərərçəkən və şahid qismində dindirilməsi, konkret olaraq hər bir kənd icması ağsaqqallarının icmaya daxil olan kəndlərdə Amazaspın cəza dəstəsi tərəfindən törədilən qırğınlar, insan tələfatı, talanlar, əhaliyə dəyən maddi və mənəvi ziyanlar, o cümlədən erməni faşistlərinin Quba şəhərinin və Quba qəzasının dinc əhalisinə qarşı törətdikləri vəhşilikləri hansı formada və tərzdə həyata keçirdiklərini bütövlükdə və ən xırda detalları ilə əks etdirir. Belə ki, FTK üzvü Novatskinin məlum hadisələrlə bağlı məruzəsinə nəzər salarkən ermənilərin xalqımızın milli-mənəvi dəyərlərinə, hisslərinə son dərəcə etinasızlıqla yanaşmasının şahidi oluruq. «Elə hallar olurdu ki, əhali tabeçiliyini bildirmək üçün ermənilərlə danışıqlar aparmaqdan ötəri özlərinin ağ bayraqlı nümayəndələrini göndərirdilər, lakin ermənilər onlarla heç bir danışığa girmədən güllələyirdilər. Məsələn, belə bir hadisə Əlixanlı icmasında baş vermişdi, burada erməni dəstəsi danışıqlar aparmaq üçün nümayəndə qismində göndərilmiş icma başçısı Mirzə Məmməd Dadaş oğlu ilə Gül-Hüseyn Məhərrəm oğlunu qətlə yetirmişdilər» (14).

Xalqımızın həyatında qanlı olaylarla yadda qalan bu ağır zaman kəsiyi Sovet tarixşünaslığında 180 dərəcə əks istiqamətdə işıqlandırılmışdır. 1960-cı ildə Z.İbrahimov və M.İsgəndərovun redaktorluğu ilə işıq üzü görən «Azərbaycanda Sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizə-si» adlı 1917-1918-ci illər Azərbaycan tarixinə dair, daha doğrusu adından da göründüyü kimi Azərbaycanda bolşeviklərin hakimiyyət uğrunda apardıqları mübarizə tarixinə dair sənədlər və materiallar toplusunda əsasən həmin dövr bolşevik mətbuatında dərc olunan məqalələr, Bakı Sovetinin, Bakı XKS-nin həyata keçirdiyi tədbirlərlə bağlı fərman, sərəncam, qərarlar və s. bu kimi materiallar öz əksini tapmışdır. Burada toplanan sənəd və materiallar Bakı XKS-nin xalqımıza yad və düşmən bir qurum olmasını, antiazərbaycan mahiyyətli tədbirlərə, o cümlədən qanlı soyqırım aktlarını həyata keçirməsini ustalıqla ört-basdır etmiş, hadisələri bolşevik ideologiyasının maraqlarına uyğun bir tərzdə canlandırmaq üçün bəhs edilən dövrdə bolşevik mətbuatında birmənalı qaydada bolşevik yönümlü məqalələrdən gen-bol istifadə edilmişdir.

Məsələn, Serqo Martikyanın müəllifi olduğu «Qubada Sovet hakimiyyəti yaradılması haqqında Bakı Sovet qoşun dəstəsinin Bakı şəhəri və onun rayonlarının hərbi-inqilab Komitəsinə məlumatı»nda oxuyuruq: «Bizim dəstəmiz Qubanı tutmuşdur. Dəstənin bir hissəsi şəhəri hər tərəfdən mühasirəyə alır. Sovet hakimiyyətini bərpa etmək üçün oraya komissar göndərmişik» (15, 363).

Göründüyü kimi, burada milli tərkibi əsasən erməni daşnaklarından ibarət olan qatillər bandası «Bizim dəstəmiz» adlandırılır. Dinc qubalılara tutulan divan isə «Sovet hakimiyyətinin bərpa etmək» adı altında ört-basdır edilir.

Qubada və Quba qəzasında törədilən, müəllifi və icraçıları Bakı XKS-nin sədri Şaumyan və onun daşnak soydaşları olan soyqırımı hadisələrinin baş vermə səbəblərinin öyrənilməsi hər şeydən öncə bu cinayətkar qurumun əsl

mahiyyətini anlamağa, onun antiazərbaycan xarakterini dərk etməyə geniş imkanlar açır.

Belə ki, bütün FTK sənədlərində, Quba hadisələri Bakıdakı qanlı mart olaylarının məntiqi davamı, bolşeviklərin Cənubi Qafqazda siyasi hakimiyyətlərini yaymaq üçün apardıqları siyasi mübarizənin hakimiyyətlərini yaymaq üçün apardıqları siyasi mübarizənin bir epizodu, fraqmenti kimi təqdim edilir. Hadisələrin siyasi inkişaf məcrasını arzuolunan istiqamətdə yönəltmək üçün mart hadisələrinin siyasi əhəmiyyəti Sovet tarixşünaslığında həddən ziyadə şişirdilirdi: «1918-ci ilin martı Azərbaycanda və bütün Zaqafqaziyada sosialist inqilabı uğrunda mübarizənin gərgin, əlamətdar aylarından biri idi. Bu zaman Sovet hakimiyyəti ideyalarının Azərbaycan və bütün Zaqafqaziya zəhmətkeşləri içərisində dərin kök salmasından lərzəyə düşən müsavatçılar azərbaycanlı fəhlə və kəndliləri inqilabi mübarizədən azdırmaq üçün «milli azadlıq», «milli müstəqillik» və Azərbaycan muxtariyyəti şüarlarından daha çox dəm vurur, ibarəbazlıq və boşboğazlıq edirdilər» (16, 226).

Sovet dövr Azərbaycan tarixşünaslığında bəhs olunan dövr və hadisələrin ən məhsuldar və nüfuzlu tədqiqatçılarından biri və bəlkə də birinci sayılan Z.İbrahimovun məlum hadisələrə məhz belə bir rakursdan yaxınlaşması, təbii ki, ilk növbədə xidmət etdiyi siyasi rejimin siyasi sifariş və istəklərindən, həmçinin Bakı XKS-nin antiazərbaycan mahiyyəti daşıyan siyasi fəaliyyətini, xalqımıza qarşı qatı erməni millətçilərinin görünməmiş vandalizm aktları ilə həyata keçirdikləri qanlı cinayətləri ört-basdır etmək məqsədlərini güdmüşdür. Müəllif xalqın azadlıq və istiqlal arzularını ifadə edən, azərbaycanlılar arasında böyük sosial dayağa və nüfuza malik olan Müsavat partiyasının «milli azadlıq» və «milli istiqlal» və «Azərbaycanın muxtariyyəti» kimi çağırışlarına tənqidi yanaşmaqla, xalqımızın təbii istək və arzularına həqarətli münasibəti ilə kifayətlənmir, milli burjuaziyamızı qatı şovinizmdə, separatçılıqda suçlandırmaqdan da çəkinmir (17, 226).

Beləliklə, baş verən olaylarla bağlı Sovet tarixşünaslığında ən çox elmi tədqiqat işləri yazan, xüsusi çəkisi və nüfuzu olan Z.İbrahimov Qubada və Quba qəzasında törədilən soyqırımlarından, erməni daşnaklarının özbaşınalığından bircə kəlmə belə söz açmır və gətirilən iqtibaslar da göründüyü kimi hadisələri Sovet ideologiyasının müəyyən etdiyi tələblərə tamamilə uyğun bir tərzdə təqdim etməklə, real hadisələri ustalıqla saxtalaşdırmağa nail olur. Müəllifin haqqında söhbət gedən olaylarla bağlı gəldiyi qənaət də bunu bir daha sübut edir: “Deməli, 1918-ci ilin aprelində və may ayının əvvəllərində Azərbaycan ərazisinin xeyli hissəsində və Dağıstanda Sovet hakimiyyəti qələbə çaldı, Böyük Oktyabrın bayrağı dalğalanmağa başladı” (18, 235).

Sovet tarixşünaslığında Qubada və Quba qəzasında törədilən məlum hadisələrdən bəhs edilərkən nəzərə çarpan cəhətlərdən biri də həqiqətə tamamilə uyğun gəlməyən ifadələrin seçilməsi, saxta ibarəbazlıqdan geniş surətdə istifadə edilməsi və ağ yalandır. Əgər FTK sənədləri Qubaya soxulan bolşevik-erməni dəstələrinin şəhərdə və qəzada törətdiyi vəhşilikləri ən xırda nüansları

ilə zərərçəkənlərin və şahidlərin öz ifadəsi ilə nə qədər aydın təsvir edirsə, sovet dövr tarixşünaslığında biz bu həqiqətlərin tam əksini görmüş oluruq.

Məsələn, Qubanın adlı-sanlı din xadimi, 60 yaşlı Molla Hacı Baba Axundzadə məlum hadisələrlə bağlı yazır ki, Qubadakı ermənilərə heç bir təhlükənin olmadığına baxmayaraq, ləzgilər Gelovanini şəhərdən qovarkən o, 200 erməni özü ilə apardı. Şəhərdən çıxmaq zorunda qalan bolşeviklər əsasən ermənilərdən ibarət xristian əhalisini özləri ilə apardılar. Bu hadisələrdən on gün sonra yəni mayın 1-də Amazaspın cəza dəstəsi ləzgilər tərəfindən öldürülən ermənilərin qisasını almaq üçün Qubaya gəldi (19).

Şahid fikrinə davam etdi: "Silahlı dəstə şəhərə gündüz daxil oldu. Ermənilər hücuma başlayarkən dərhal müsəlmanları, qadın və uşaqları qırmağa başladılar. Küçələrdə və meydanlarda kim var idisə hamısını, hətta evlərə belə soxulub, südəmər körpələrə belə rəhm etmədən bütöv ailələri ucdantutma qırmağa başladılar" (20).

Halbuki, sovet dönəmində işıq üzü görmüş 3 cildlik Azərbaycan tarixində biz Qubada və Quba qəzasında törədilmiş həmin o müdhiş hadisələrlə bağlı tamamilə fərqli fikirlərlə rastlaşırıq: "1918-ci il mayın əvvəllərində türk və ağqvardiyaçı rus zabitlərinin rəhbərlik etdiyi bəy quldur dəstələri Qubaya hücum edib onu ələ keçirdilər. Lakin onlar şəhərdə dayana bilmədilər. Sovet hissələrinin fəal yardımı ilə şəhər yoxsulları və qızıl qvardiya dəstələri düşməni sıxışdırıb şəhəri yenidən azad etdilər" (21, 127).

Göründüyü kimi, Qubada baş verən olaylar kobudcasına saxtalaşdırılıb, hadisələr böyük təhrifə məruz qalıb. Hətta FTK sənədlərində saysız-hesabsız zərərçəkən və şahid ifadələri ilə tərkibinin sırf erməni daşnaklarından təşkil edilməsi sübut edilən qatı quldur Amazaspın "cəza" dəstəsi bu dəstənin qurbanı olan qubalılardan – şəhər yoxsullarından yardım alan Sovet hərbi hissəsi kimi təqdim edilir.

Sovet tarixşünaslığında Qubada və Quba qəzasında törədilən soyqırımları ilə bağlı hadisələrin üstündən sükutla keçilsə də hadisələrin obyektiv mahiyyətini dərk etməyə ip ucu verən, bəzənsə baş verənlərin əsl səbəblərini zaman-məkan konteksində, tarixilik baxımından dərindən öyrənməyə yardımçı olan məqamlarla da rastlaşmaq olur. Bu kimi tarixi fraqment, element və faktların FTK sənədləri ilə tanış olduqdan sonra sintezi Qubada və Quba qəzasında törədilən qanlı olaylarla bağlı təbii olaraq bir sıra məqamlara aydınlıq gətirir.

FTK sənədləri əsasında belə faktların elmi-obyektiv təhlili bu gün bir vaxtlar, sovet dönəmində baş verən olaylara münasibətdə müəllifin harada obyektiv, hansı məqamlarda isə ideoloji maraqlara xidmət edərək subyektiv olduğunu müəyyən etməyə imkan verir. Məsələn, tədqiqatçı H.Əzimov "Bakı Kommunası" adlı kitabında xüsusən həmin kitabın "Qəzalarda sinfi mübarizənin güclənməsi" adlı yarımfəslində ənənəvi stereotiplərdən, haqqında söhbət gedən hadisələrə vahid, sxematik rakursdan yanaşsa da, yəni qəzalarda törədilən soyqırımlarına və talanlara Bakıda bolşeviklərin hakimiyyət uğrunda apardıqları siyasi mübarizənin davamı kimi baxsa da, Bakı Sovetinin tərəfində

vuruşan dəstələrin tərkibində erməni milli hissələrinin və daşnakların iştirakını mənfi hal kimi qiymətləndirir.

Tokarjevski bildirirdi: “Qeyd etmək lazımdır ki, daşnaklar və Erməni Milli Şurası müsavat qiyamının əvvəlində gözləmə mövqeyində dayanaraq “neytral” olduqlarını bildirdilər. Lakin üsyançıların məğlubiyyətini görüncə, Bakı Soveti tərəfində vuruşmağa hazır olduqlarını bildirdilər. Erməni hərbi hissələrinin müsavatçılara qarşı vuruşmasından istifadə edərək, daşnaklar sinfi mübarizəni millətlərarası mübarizəyə çevirməyə cəhd etdilər. Silahlı daşnak dəstələri dinc azərbaycanlıları qətlə yetirməyə, talan etməyə başladılar” (22, 86).

Müəllif, 1987-ci ildə işıq üzü görən “Böyük Oktyabr Azərbaycanda” adlı kitabında daşnakların Bakı bolşeviklərinin təşkil etdiyi Qızıl Ordu sıralarında daha böyük çəkiyə malik olduğunu bir qədər də geniş aspektdə təqdim etmişdir. Bu da təbii ki, artıq ötən əsrin 80-ci illərinin II yarısından başlayaraq kommunist rejimlərinin süqutunun labüdlüyü, SSRİ və dünya məkanında ermənilərin Azərbaycanın tarixi torpaqlarına əsassız iddiaları ilə bağlı yeni kompaniyaya başlamaları ilə bağlı idi. Cəmiyyətin ictimai-siyasi həyatında baş verən bütün bu təbəddülatlar H.Əzimovun yuxarıda adı çəkilən kitabında aydın nəzərə çarpmaqdadır.

Belə ki, müəllif Bakı XKS-nin nəzarəti altında olan Qızıl Ordunun tərkibindən söhbət açarkən yazır ki, bu ordunun tərkibində daşnak zabitlərinin rəhbərliyi altında olan hərbi hissələr çoxluq təşkil edirdi (23, 293).

Müəllif istər Qızıl Ordunun, istərsə də 14-cü Qafqaz Qızıl batalyonunun zabit heyəti haqqında söhbət açarkən yazır: “Siyasi baxımdan bu ordunun komanda heyəti çox etibarsız idi. Yuxarı vəzifələrə sovet komandir kadrları çatışmadığına görə hərbi hissələrdə və qərargahlarda bu vəzifələri inqilaba yad olan daşnaklar və ya daşnaklara meylli olan zabitlər tuturdu (24, 294).

Müəllifin Bakı Sovetinin, sonralar isə Bakı XKS-nin tabeliyində olan orduda və hərbi hissələrdə rəhbər vəzifələrin daşnaklara məxsus olmasını Oktyabr çevrilişinin 70 illik yubileyində nəşr olunan kitabında etiraf etməsi təbii ki, müsbət haldır. Məhz bu həqiqətin etirafı və artıq dağılmaq ərəfəsində olan sovet dövr tarixşünaslığında xüsusi olaraq vurğulanması məhz bu kimi daşnak ünsürlərinin əli ilə Bakıda və Azərbaycanın qəzalarında, o cümlədən də Qubada və Quba qəzasında törədilən qanlı olayların etiraf olunması, özü də bu işdə məhz Bakı XKS-nin rəhbəri Şaumyanın bilavasitə əlinin və marağının olmasının təsdiqi demək idi. Bunun ardından, müəllifin bu qüvvələri, yəni daşnakları inqilaba yad, yəni etibarsız adlandırmaqla bərabər, Sovet ordusunda zabit vəzifələrinə yiyələnməsini eyni cümlədə bəyan etməsi, təbii ki, belə qüvvələri orduda iri N vəzifələrdə yerləşdirənlərin, yəni Bakı XKS-nin rəhbərlərinin özlərinin istək və maraqlarına uyğun olduğunu aydın şəkildə göstərməsi deməkdir. Bunu müəllifin öz fikrinə davam edərək Qubada və Quba qəzasında törədilən qırğınların əsas “qəhrəmanı” Amazasp haqqında yazdıqları da sübut edir: “Sovet hakimiyyətinin qatı düşməni Amazasp Qızıl Ordunun 16, 17, 18

və 21-ci batalyonlarını birləşdirən 3-cü briqadanın komandiri oldu" (25, 294).

Beləliklə, kommunist sisteminin süquta doğru getdiyi bir dövrdə işıq üzü görən bu tədqiqat əsərində H.Əzimov Qubada və Quba qəzasında qırğın və talanların əsas iştirakçısı, qəhrəmanı, Bakı XKS sədri bolşevik Şaumyanın daşnak dostu Amazaspın Qızıl Orduya düşmən olması fikrini açıq şəkildə göstərməklə, əslində onu dəstəkləyənlərin və ona Qızıl Orduda belə böyük bir vəzifə, səlahiyyət verənlərin özlərinin də vəzifə və səlahiyyətlərindən xalqımıza qarşı düşmən siyasətlərini həyata keçirmək üçün sui istifadə edən şəxslər olduğunu bəyan etmişdir.

Göründüyü kimi, Sovet dövrü tarixşünaslığı ilkin və etibarlı mənbə sayılan FTK-nın sənədlərini "məxfi qrif" altında saxlamaqla, təkcə bəhs edilən dövrdə məhz həmin dövlətin siyasi maraqlarına uyğun surətdə həyata keçirilən Quba qırğınlarını deyil, həm də tarixi proseslərin inkişaf dinamikasını saxtalaşdırmaqda, bütövlükdə isə, hadisələri istədiyi məcrada "tədqiq" və ən əsası təqdim etməkdə ictimai fikri azdırmaq istəyində idi.

## ƏDƏBİYYAT


1. Азизбекова П. Мешади Азизбеков. Баку: Красный Восток, 1958, 110 s. Qaziyev M. Məşədi Əzizbəyov. Həyat və fəaliyyəti. Bakı, Gənclik, 1976, 127 s.
2. Азизбекова П. Мешади Азизбеков. Баку: Красный Восток, 1958, 110 s. Qaziyev M. Məşədi Əzizbəyov. Həyat və fəaliyyəti. Bakı, Gənclik, 1976, 127 s.
3. ARDA, f. 1061, siy. 1. iş 96, vər. 62-65; ARDA, f. 1061, siy. 1. iş 96, vər. 113-114; ARDA, f. 1061, siy. 1. iş 96, vər. 115-116; ARDA, f. 1061, siy. 1. iş 96, vər. 118-119; ARDA, f. 1061, siy. 1. iş 96, vər. 144-146
4. Azərbaycan Kommunist PartiyasıTarixinin oçerkləri. Bakı: Azərbaycan, 1964, 817 s. 278 s.
5. Казачнуни Ов. Дашнакцутюн больше нечего делать! Баку: Элм, 1990, 21 s.
6. Казачнуни Ов. Дашнакцутюн больше нечего делать! Баку: Элм, 1990, 21 s.
7. Казачнуни Ов. Дашнакцутюн больше нечего делать! Баку: Элм, 1990, 21 s.
8. İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. Bakı: Azərnəşr, 1957, 585 s.; İbrahimov Z. Azərbaycan bolşeviklərinin sosialist inqilabı uğrunda mübarizəsi // "Azərbaycan kommunisti" j., 1959, № 7; Köçərli T. Tarixi saxtalaşdıranlar əltyhinə. Bakı: Azərnəşr, 1972, 182 s.
9. ARDA, f. 1061, siy. 1. iş 96, vər. 116
10. ARDA, f. 1061, siy. 1. iş 96, vər. 46
11. Əsədov F., Kərimova S.. Çarizmi Azərbaycana gətirənlər. Bakı: Gənclik, 1993, 139 s.
12. Əsədov F., Kərimova S.. Çarizmi Azərbaycana gətirənlər. Bakı: Gənclik, 1993, 139 s.
13. Мильман А. Деятельность Бакинского Совета как органа пролетарской диктатуры в Азербайджане (октябрь 1917 г. – июль 1918 г.) Великий Октябрь и борьба за Советскую власть в Азербайджане. Баку. Изд.-во АН Азерб. Республики 503 s.
14. ARDA, f. 1061, siy. 1. iş 95, vər. 5-8,
15. Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918-ci illər. Bakı: Azərbaycan, 1960, 675 s.
16. İbrahimov Z. V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. Bakı: Azərnəşr, 1970, 527 s
17. İbrahimov Z. V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. Bakı: Azərnəşr, 1970, 527 s
18. İbrahimov Z. V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. Bakı: Azərnəşr, 1970, 527 s

19. ARDA, f. 1061, siy. 1. iş 96, vər. 113-114
20. ARDA, f. 1061, siy. 1. iş 96, vər. 113-114
21. Azərbaycan tarixi. 3 cildlik, Bakı: Elm, 1973, 548 s.
22. Токаржевский Е. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку АН Азербайджанской Республики, 1957, 330 с.
23. Азимов Г. Великий Октябрь в Азербайджане. Баку: Азернешр, 1987, 321 с.
24. Азимов Г. Великий Октябрь в Азербайджане. Баку: Азернешр, 1987, 321 с.
25. Азимов Г. Великий Октябрь в Азербайджане. Баку: Азернешр, 1987, 321 с.

## ФАЛЬСИФИКАЦИЯ В СОВЕТСКОЙ ИСТОРИОГРАФИИ ГЕНОЦИДА СОВЕРШЕННОГО АРМЯНСКИМИ БАНДО-ФОРМИРОВАНИЯМИ ВЕСНОЙ 1918 ГОДА В ГУБЕ И ГУБИНСКОМ УЕЗДЕ – ИССЛЕДОВАНИЕ НА ОСНОВЕ ДОКУМЕНТОВ ЧРЕЗВЫЧАЙНО СЛЕДСТВЕННОЙ КОМИССИИ

**А.Дж.ХАЛИЛЗАДЕ**

### РЕЗЮМЕ

В этой статье дано критическое отношение к научным трудам советских историков, которые исказили реальность, а именно действия, творимые армянскими бандо-формированиями погромы и массовые убийства, совершаемые в Губе и Губинском уезде. Эти погромы массовые истребления многочисленных невинных людей. В статье объективно раскрыто роль чрезвычайной Следственной Комиссии о событиях, которые имели место в Губе и Губинском уезде. Эти выводы были сделаны на основе проведенных исследований, т.к. до этого в печати трагические события или вовсе не были освещены или освещены очень поверхностно.

**Ключевые слова:** геноцид, терроризм, арменин, мусульманин, комиссия.

## ANALYSIS OF THE FALSIFICATION OF THE MASSACRES COMMUTED IN QUBA AND QUBA UYEZD IN THE SPRING OF 1918 IN THE SOVIET HISTORIOGRAPHY (BASED ON THE DOCUMENTS OF ECL)

**A.J.KHALILZADE**

### SUMMARY

The massacre of thousands of innocent people was either ignored or superficially illustrated in the works of Soviet historians. The present article presents documents of ECL illustrating the reality as well.

**Key words:** gennoside, terrorism, Armenia, Muslim, commission, documents, investigate.